**“Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində baş vermiş, enerji istehsalı və təchizatı müəssisəsinin sabit işləməsinə və enerji təchizatında təhlükə yaradan qəzaların araşdırılmasında iştirak edilməsi Qaydaları”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi”nin 3.1.35-ci yarımbəndinə əsasən Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən təqdim edilmiş təklifləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində baş vermiş, enerji istehsalı və təchizatı müəssisəsinin sabit işləməsinə və enerji təchizatında təhlükə yaradan qəzaların araşdırılmasında iştirak edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Ümumi şöbə bu Əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
3. Bu Əmrin icrasına nəzarət Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədrinə həvalə edilsin.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

15 dekabr 2022-ci il
№ F-134

Azərbaycan Respublikası Energetika Nazirliyinin
15 dekabr 2022-ci il tarixli F-134 nömrəli Əmri ilə
təsdiq edilmişdir.

**Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində baş vermiş, enerji istehsalı və təchizatı müəssisəsinin sabit işləməsinə və enerji təchizatında təhlükə yaradan qəzaların araşdırılmasında iştirak edilməsi**
**QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi”nin 3.1.35-ci yarımbəndinə əsasən hazırlanmışdır və elektrik enerjisi, istilik enerjisi və (və ya) qaz təchizatı sahəsində (bundan sonra – müvafiq sahədə) baş vermiş, enerji istehsalı və təchizatı müəssisəsinin sabit işləməsinə və enerji təchizatına təhlükə yaradan qəzaların araşdırılmasında iştirak ilə bağlı Agentlikdaxili münasibətləri tənzimləyir.

1.2. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.2.1. **araşdırma** – müvafiq sahədə baş vermiş, enerji istehsalı və təchizatı müəssisəsinin sabit işləməsinə və enerji təchizatına təhlükə yaradan qəzaların (bundan sonra – qəza) araşdırılması;

1.2.2. **araşdırma aparan qurum** – araşdırmanın aparılması həvalə edilmiş dövlət orqanı;

1.2.3. **texnoloji proses** – istehsal prosesinin bir hissəsi olub, əmək vəziyyətinin dəyişdirilməsi ilə əlaqədar müstəqil məsələlərin həlli ilə bağlı məqsədyönlü, qarşılıqlı əlaqəli fəaliyyət.

## 2. Araşdırmada iştirak

2.1. Araşdırmada iştirak aşağıdakıları əhatə edir:

2.1.1. qəza barədə məlumatların toplanılmasını, təhlilini və qiymətləndirilməsini;

2.1.2. qəzanın başvermə səbəblərinin müəyyən olunmasını.

2.2. Araşdırma ilə əlaqədar Energetika Nazirliyindən iştirakçıların təqdim edilməsi barədə daxil olmuş göstərişdə qeyd olunmuş müddətdən gec olmayaraq Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri araşdırma iştirakçılarını müəyyən edib Nazirliyə təqdim etməlidir.

2.3. Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən Energetika Nazirliyinin əmri ilə müəyyən edilmiş araşdırma iştirakçısının (iştirakçılarının) araşdırmada iştirakı təmin olunmalıdır .

2.4. Araşdırma iştirakçısı araşdırma zamanı aşağıdakıları yoxlayır:

2.4.1. qəzadan əvvəlki halların, o cümlədən energetika subyektlərinin və istehlakçıların qəzanın baş verməsinə səbəb olan hərəkətlərini (hərəkətsizliyini);

2.4.2. energetika subyektləri və istehlakçılar tərəfindən energetika sahəsində normativ hüquqi aktların tələblərinə riayət edilməsini;

2.4.3. energetika subyektləri və istehlakçılar tərəfindən qəzanın nəticələrinin və qəzaya səbəb olan avadanlıqdakı qüsurların aradan qaldırılmasını, onların etibarlılığının artırılmasını, keyfiyyətinin yüksəldilməsini və təmir işlərinin, sınaq və profilaktik yoxlamaların müddətinə riayət edilməsi üçün tədbirlərin vaxtında görülməsini, qəzaya səbəb olan avadanlığın vəziyyətini, habelə təmir işləri zamanı texnoloji tələblərə əməl edilməsini.

2.5. Araşdırma iştirakçısı qəzaların səbəblərini müəyyən etmək üçün aşağıdakıları həyata keçirir:

2.5.1. qəzadan sonrakı vəziyyətin qorunması (mümkünsə) üçün tövsiyələrin verilməsini;

2.5.2. qəza ilə əlaqədar sənəd və sübutların, o cümlədən əməliyyat və dispetçer danışıqlarının səsyazmasının surətinin əldə olunmasını;

2.5.3. qəzadan sonra qoruyucu qurğuların təsvirinin əldə edilməsini;

2.5.4. qəza səbəbindən istismarı dayandırılmış avadanlığa texniki xidmət ilə bağlı sənədlərin mövcudluğunun yoxlanılmasını;

2.5.5. qəza yerinə baxış keçirilməsini, həmin yerin fotoşəkillərinin çəkilməsini, tam və dolğun məlumat əldə etmək mümkün olmadıqda video çəkilişini, qəza yerinin sxeminin və eskizinin tərtib edilməsini;

2.5.6. qəzanın baş verdiyi energetika obyektində və (və ya) qurğusunda əməliyyat heyətinin, habelə qəzanın şahidlərinin, həmin obyektin məsul şəxslərinin izahatlarının (yazılı şəkildə) alınmasına dair tövsiyələrin verilməsini;

2.5.7. qəzadan bilavasitə əvvəl baş vermiş və qəzaya səbəb olan halların aydınlaşdırılmasını, habelə onların baş vermə səbəblərinin müəyyən edilməsini;

2.5.8. texnoloji proseslərin və qəzaya səbəb olan avadanlıqların istismarı zamanı baş vermiş pozuntuların xarakterinin aydınlaşdırılmasını;

2.5.9. energetika obyektində və (və ya) qurğusunda qəzanın baş verməsinin, onun fəsadlarının artmasının və (və ya) təsirinin davam etməsinin qarşısını almaq üçün əməliyyat heyətinin və həmin obyektin məsul şəxsinin hərəkətlərinin qiymətləndirilməsini;

2.5.10. qəza baş vermiş energetika obyektinə cavabdeh olan əməliyyat heyətinin (olduğu təqdirdə) hərəkətlərinin normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması və tövsiyələrin verilməsini;

2.5.11. qəza baş vermiş energetika qurğularının istismarı üçün müəyyən edilmiş normativ hüquqi aktların və (və ya) icrası məcburi olan göstərişlərin pozulmasının aşkar edilməsini;

2.5.12. qəza baş vermiş energetika obyektinə və (və ya) qurğuya tətbiq olunan təhlükəsizlik tələbləri nəzərə alınmaqla, həmin obyekt və (və ya) qurğunun təhlükəsizliyinin qiymətləndirilməsini;

2.5.13. qəza baş vermiş energetika obyektinin və (və ya) qurğusunun, yaxud onunla əlaqədar texnoloji prosesin həmin obyekt və (və ya) qurğunun tikinti (quraşdırma) layihəsinə uyğunluğunun müəyyən edilməsini;

2.5.14. qəza baş vermiş obyektdə istifadə olunmuş avadanlığın təyinatına uyğunluğunun yoxlanılmasını;

2.5.15. qəza baş vermiş obyektə cavabdeh olan texniki heyətin mühafizə vasitələrinin mövcudluğunun və istismara yararlılığının yoxlanılmasını.

2.6. Araşdırma iştirakçısı araşdırma aparılan müəssisədə aşkar olunmuş pozuntularla bağlı, eyni zamanda gələcəkdə belə qəzaların baş verməsinin qarşısının alınmasına və qurğuların təhlükəsiz və etibarlı istismarının təmin olunmasına dair araşdırma aparan quruma tövsiyələrini verir.